3
2016

İSSN-0207-4710

# GÖYƏRÇİN



RAFİQ YUSİFOĞLU

## NƏVƏM FATİMƏYLƏ LOS ANCELESDƏ İLK GÖRÜŞ

Nəvəmi görmək üçün
Göylərə yüksəlmişəm.
Dünyanın o üzündən,
Bu üzünə gəlmişəm.

Yapışaraq uçmuşam
Sanki günəş zərindən,
Dənizlər, okeanlar,
Ölkələr üzərindən.

Fatimə əl eləyir,
Sevincdən əsir ürək.
Uçub qonur çiynimə
Bir xallı kəpənək tək.

Qucaqlayıb boynumu
Öpür, öpür üzümdən.
Bu uzaq, qərib diyar
Gözəlləşir gözümdə…




## ELƏ BİL

Elə bil ki, məni görüb
Sevindi Sakit okean.
Səni bir sevən də artdı,
Kefindi, Sakit okean!

## QÜRBƏT

Baş qoyaraq köksümə
Nəvələr köks ötürür.
Ayrılıq yaman şeydi,
Məni fikir götürüb…

Bu sözün mənasını
Qürbətə düşən anlar.
Vətənin sinəsinə
Baş qoyub sanki onlar…





## SAKİT OKEAN, DİNC DUR

Adın sakit olsa da,
Sakitlik sənə yaddır.
Daim kükrəyib daşmaq
Sənin üçün həyatdır.

Yepyekə gəmilərə
Açıq olur qucağın.
O qədər nəhəngsən ki,
Yoxdur ucün-bucağın.

Bu qabarma nədəndi, –
Nə tufan var, nə külək?!
Sakit okean, dinc dur,
Qoy bir az rahat çimək…

***

Dünyanın hər yerində
Səmanı günəş, ay bəzəyir.
Dünyanın bütün ölkələri
Bir-birinə bənzəyir…

## SULAR SƏLTƏNƏTİ

Mən Sakit okeanda
Çimdikcə axşam-səhər,
Yadıma düşür Bakı,
Yadıma düşür Xəzər.

Yox ucu, yox bucağı,
Möcüzəli sudur bu.
Yer üzünün ən böyük
Okeanı budur, bu!

Üstündə nəhəng-nəhəng
Gəmilər yük daşıyır.
Qoynunda akulalar,
Balinalar yaşayır.

Dərinə getsən, sənin
Başından dalğa basar.
Sahillə arasına
Çəkibdir dalğa hasar…

Bu sular səltənəti –
Möcüzəli bir cahan!
Adı sakitdir, niyə
Sakit durmur bircə an?!

## SAKİT OKEAN

Sakit okeana bax,
Suyu necə təmizdi.
Sahilində dayanan
Sanır ki, o, dənizdi.

Suyunun yarısını
Dənizlər, göllər tutmaz.
Onu bircə yol görən
Ömrü boyu unutmaz.

Qoynunda akulalar,
Balinalar yarışır.
Özü nəhəng olana
Sakitlik çox yaraşır…